***RESENZİYALAR. RƏYLƏR. İCMALLAR***

***РЕЦЕНЗИИ. ОТЗЫВЫ. ОБЗОРЫ***

***REVİEWS. COMMENTS. İNSPECTİONS***

**UOT 78.03**

**DOİ: https://doi.org/10.5281/zenodo.16415654**

# "ORQAN VƏ MUĞAM MUSİQİSİ AXŞAMI" ADLI KONSERTİN TƏƏSSÜRATLARI

**AYTƏN BABAYEVA***
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

***Sitat gətirmək üçün:*** Babayeva A. "Orqan və muğam musiqisi axşamı" adlı konsertin təəssüratları // // – Bakı: Musiqi dünyası. Beynəlxalq Elmi Musiqi Jurnalı, – 2025.Vol.27/№2 (103), – s.105-109.

# ВПЕЧАТЛЕНИЯ ОТ КОНЦЕРТА «ВЕЧЕР ОРГАННОЙ МУЗЫКИ И МУГАМА»

**АЙТАН БАБАЕВА**

*Доктор философских наук в области искусствоведения, доцент*

# IMPRESSIONS OF THE CONCERT "EVENING OF ORGAN AND MUGHAM MUSIC

**AYTAN BABAYEVA**

*Doctor of Philosophy in Art History, Associate Professor*

Azərbaycan musiqi mədəniyyətində Qərb və Şərq musiqi mühitinin əlaqələndirilməsindən yaranan konsertlərin keçirilməsi böyük maraqla qarşılanır. Bu silsilədən olan növbəti konsert proqramı isə Azərbaycan bəstəkarlarının əsərləri ilə xalq mahnı və rəqslərinin Avropa mənşəli

* ©Aytən Babayeva, 2025

CC BY 4.0 DEED
Attribution 4.0 International

musiqi alətlərində ifa olunmasına əsaslanmışdır. Konsertin təşkil olunması zamanı milli musiqi mədəniyyətimizə xas musiqi nümunələrinin Avropa alətlərində ifaçılıq xüsusiyyətlərinə əsasən səsləndirilməsi amili nəzərə alınmışdır. Eyni zamanda konsertin keçirilməsi Azərbaycan Bəstəkar İttifaqının 90 illik yubileyinin keçirildiyi dövrə təsadüf etdiyi üçün əsas məqsəd bu istiqamətdə gənc musiqiçilərin öz töhfələrini verməkdən ibarət olmuşdur.

Qeyd edək ki, Azərbaycan Bəstəkarlar İttifaqının 90 illik yubiley tədbirlərinin keçirilməsi ölkəmizin mədəni həyatını zənginləşdirməklə yanaşı, yeni yazılmış əsərlərin səsləndirilməsi və istedadlı gənc musiqiçilərin üzə çıxarılması ilə əlamətdar oldu. Müxtəlif musiqi məkanlarında təşkil olunan çoxsaylı tədbirlərin əksər hissəsi Azərbaycan Bəstəkarlar İttifaqının musiqi mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynamasını təsdiqləməklə yanaşı, həm də bu yaradıcı təşkilatın musiqi təhsili sahəsində ən yaxşı ənənələrin qorunub saxlanılması və yeniləndirilməsi prinsiplərinin də göstəricisidir. Bu baxımdan M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Kamera və Orqan musiqisi zalında Azərbaycan Bəstəkarlar İttifaqının 90 illik yubileyi ilə əlaqədar “Orqan və muğam musiqisi axşamı” adlı konsertin keçirilməsi müasir dövrdə musiqi təhsili və ifaçılıq sahəsində bəstəkar və ifaçılar arasında qarşılıqlı əlaqənin nümayiş etdirilməsinin ən parlaq nümunəsi kimi dəyərləndirilə bilər.

Tədbirdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova, bəstəkar Rüfət Ramazanov və musiqi ictimaiyyətinin tanınmış nümayəndələri iştirak etməklə, gənc musiqiçilərin ifaçılıq bacarıqlarını nümayiş etdirmələrinə dəstək göstərdilər.

Ənənə və varislik prinsipi üzrə təşkil olunan konsertdə gənc musiqiçilərlə yanaşı, müəllimlərin də çıxış etməsi, eyni zamanda tədbiri hesabat əhəmiyyətli konsert kimi dəyərləndirməyə imkan verirdi. Hesab etmək olar ki, bu kimi konsertlərin təşkil olunması müəllim və tələbə arasında yaradıcı əlaqənin yaradılmasına bilavasitə təsirini göstərməklə yanaşı, həm də gənc musiqiçilərin professionallıq səviyyəsinin yüksəlməsində, onların püxtələşməsində mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, bu kimi konsertlərin keçirilməsi gənc musiqiçilərin ifaçılıq bacarıqlarının nümayiş olunması ilə yanaşı, onların tamaşaçı ilə ünsiyyəti zamanı özünü formalaşdırmasına da imkan yaradır.

Konsertdə Azərbaycan Respublikasının Əməkdar müəllimi, Əməkdar incəsənət xadimi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Rasimə Babayeva, müəllim Gülnar Mirqasım, həmçinin, Beynəlxalq Müsabiqələr Laureatı Nigar Məmmədova və hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi olan Kənan Qasımzadə iştirak edərək, konsertdə canlanma yaratmışlar.

Tədbirdə Bakı Xoreoqrafiya Akademiyasının nəzdində fəaliyyət göstərən "Bakının ulduzları" adlı instrumental ansamblı da iştirak etmişdir. Xatırladaq ki, 2022-ci ilə yaranan ansamblın bədii rəhbəri sənətşünaslıq üzrə fəlsəfə doktoru, Bakı Xoreoqrafiya Akademiyasının dosenti Lalə Hüseynlidir. Ansamblın tərkibinə respublika və beynəlxalq müsabiqələr laureatları, eyni zamanda prezident təqaüdçüsü olan yeddi istedadlı gənc daxildir: Əhmədzadə Emil (fortepiano), Hüseynov Kənan (tar), Məmmədov Nihad (kamança), Mehdizadə Nizami (nağara), Əhmədov Rəvan (balaban, klarnet), Mehdizadə Nihad (balaban, klarnet), Şərifzadə Məhəmməd (qarmon). Ansambl qısa müddət ərzində yaranmasına baxmayaraq, Bakı Xoreoqrafiya Akademiyası ilə yanaşı, eyni zamanda müxtəlif respublika və beynəlxalq əhəmiyyətli tədbirlərdə, simpozium və konfranslarda çıxışları ilə dinləyiciləri valeh etməyi bacarmışlar.

Konsertin proqramı repertuar zənginliyinə malik idi. Belə ki, konsertdə Azərbaycan bəstəkarlarının orijinal əsərləri və köçürmələri ilə yanaşı, xalq mahnı və rəqsləri də səslənmişdir. Qeyd etməliyik ki, proqrama daxil olan musiqi nömrələrinin tərtibi zamanı milli ənənələrə bağlılıq nəzərə alınmış və tamaşaçıların musiqi zövqünün milli ruha köklənməsinə üstünlük verilmişdir.

Tədbiri giriş sözü ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının müəllimi Gülnar Mirqasım açaraq, təşkil olunan konsertin əsas məramını, əsas məqsədini açıqladı. Konsert professor Rasimə Babayevanın ifasında tanınmış bəstəkar Nazim Əliverdibəyovun "Bayatı-Şiraz" muğam kompozisiyasının orqanda səslənməsi ilə başladı. Daha sonra "Bakının ulduzları" instrumental ansamblının ifasında Üzeyir Hacıbəylinin "Fantaziya"sı səslənərək, konsertdə canlanma yaratdı.

Ardınca Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələrinin ifasında Vasif Adıgözəlovun "Laylay" (Kənan Hüseynov), Hacı Xanməmmədovun Kamança üçün konsertinin II hissəsi (Rasimə Babayeva (orqan) və Nihad Məmmədov (kamança)), F.Əmirovun işləməsində "Gözəlim sənsən" xalq mahnısı (Emil Əhmədzadə - piano və Gülnar Mirqasım - orqan), Cahangir Cahangirovun "Alagöz" mahnısı (Kənan Qasımzadə (xanəndə), Həsən Rzayevin "Çahargah rapsodiyası" (Nigar Məmmədova - orqan), "Sarı gəlin" və "Yaylıq" xalq mahnıları (Emil Əhmədzadə - piano və Gülnar Mirqasım - orqan), Rüfət Ramazanovun "And" poeması (Gülnar Mirqasım - orqan və Kənan Qasımzadə - xanəndə), Əfrasiyab Bədəlbəylinin "Dumanlı Təbriz" əsəri (Rəvan Əhmədov - klarnet və Nihad Mehdizadə - klarnet), Vasif Adıgözəlovun "Bakı" (Məhəmməd Şərifzadə) və "Muğam-fantaziya"sı (Nigar Məmmədova - orqan), Niyazinin "Qaytağı" əsərləri gurultulu alqışlarla qarşılandı.

İfaçı tərkibindən də göründüyü kimi, konsertdə Avropa musiqi alətləri ilə milli xanəndəlik sənəti uzlaşdırılmış, musiqi mədəniyyətimizin inkişafı mərhələsində əldə olunmuş nailiyyətlər cəmləşdirilmişdir. Xüsusilə, "Gözəlim sənsən", "Sarı gəlin" və "Yaylıq" xalq mahnılarının orqan

və fortepiano alətlərində ifa olunması konsertdə milli musiqinin qanunauyğunluqlarının daha da qabardılmasına səbəb olmuşdur. Xalq mahnılarının səciyyəvi xüsusiyyətlərinin orqan alətində səsləndirilməsi bu əsərlərə sanki yeni nəfəs verərək, onların Avropa alətinin qədim ruhu ilə qovuşaraq, yeni ahəngdə səslənməsinə imkan yaratmışdır.

Konsertdə Azərbaycan bəstəkarlarının müxətlif janrlı əsərlərinin orqan üçün köçürmələri də maraqla qarşılandı. Ümumiyyətlə, orqan üçün yazılmış əsərlərin məhdud sayda olmasını nəzərə alsaq, Azərbaycan bəstəkarlarının hamı tərəfindən tanınan və sevilən əsərlərinin əsasən orqan alətində müxtəlif köçürmə və işləmə şəklində səslənməsi konsertin ümümi əhvali-ruhiyyəsinə yeni çalarlar bəxş etdi.

Hacı Xanməmmədovun Kamança üçün konsertinin II hissəsinin orqanda Rasimə Babayeva və kamançada Nihad Məmmədov tərəfindən səsləndirilməsi Şərq və Qərb musiqi mühitini təmsil edən alətlərin maraqlı tembr sintezini yaratmağa müvəffəq oldu. Eyni zamanda Nigar Məmmədovanın Həsən Rzayevin "Çahargah rapsodiyası"nı orqanda ifa etməsi həmin əsərə yeni tembr rəngarəngliyi bəxş etdi.

Konsertdə Azərbaycan bəstəkarlarının orqan üçün yazılmış əsərləri də ifa olundu. Bu baxımdan gənc ifaçılar Rüfət Ramazanovun "And" poemasını məsuliyyət hissi ilə ifa edərək, tamaşaçıların rəğbətini qazanmağa müvəffəq oldular.

Konsertin proqramı tamaşaçıları Qərb və Şərq alətlərinin sintezinə əsaslanan musiqi dünyasına apararaq, milli musiqimizin özünəməxsus xüsusiyyətlərini, müxtəlif çalarlığını Avropa alətlərində - orqan və pianoda hiss etməyə kökləməyə nail oldular. Eyni zamanda konsert akademik təhsil pilləsində təhsil alan tələbələrin milli musiqinin qanunauyğunlarına bələd olması və onları ruhən hiss etmələri üçün də mühüm amil oldu. Azərbaycan bəstəkarlarının xalq mahnı və rəqslərinin janr və obraz-emosional məzmununun, rəngarəngliyinin göstərilməsi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələri ilə yanaşı, eyni zamanda konsert boyu parlaq çıxışları ilə yadda qalan Bakı Xoreoqrafiya Akademiyasının "Bakının ulduzları" ansamblı tərəfindən də aydın təzahürünü tapdı. Milli ruhlu musiqi nömrələrinin bir-birini əvəz etməsi konsertə emosional başlanğıc və gümrahlıq, lirik romantiklik və əzəmətli səslənmə gətirərək, tədbirin xoş notlar üzərində tamamlanması ilə nəticələndi.

Əlamətdar haldır ki, "Orqan və muğam musiqisi axşamı" adlı konsert Azərbaycan Bəstəkar İttifaqının 90 illik yubileyi çərçivəsində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələrinin keçirdikləri yekun tədbirlərdən biri kimi dəyərləndirilə bilər. Məhz bu səbəbdən konsertin proqramı xüsusi bir şəkildə, əsasən Azərbaycan bəstəkarlarının əsərləri əsasında tərtib olunmuşdur.

Ümumiyyətlə, belə səpkili konsertlərin davam etdirilməsi və ifaçıların öz ifaçılıq bacarıqlarını müntəzəm şəkildə göstərməsi nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, müəllim və tələbələr arasında yaradıcı münasibətlərə əsaslanan belə konsertlərin təşkil olunması məqsəddən və məramdan asılı olmayaraq, hər zaman aktual əhəmiyyətə malikdir. Xüsusilə, gənc ifaçıların səhnə həyatına qədəm qoymasında, onların çıxışlarının professional musiqiçilər tərəfindən izlənilməsi bu səpkili konsertlərin əhəmiyyətini daha da artırır. Bu baxımdan "Orqan və muğam musiqisi axşamı" adlı konsertdə milli musiqi və orqan alətinin əlaqələndirilməsinə Qərb və Şərq sintezindən yanaşılması tamaşaçıların maraqlı təəssüratları ilə qarşılandı.

**Məqalənin redaksiyaya daxilolma tarixi**: 18.04.2025
**Qəbulolunma tarixi**: 02.05.2025